# Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçıları ADA Universitetində olublar



Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçıları fevralın 15-də ADA Universitetində olublar. Dünyanın 17 ölkəsindən 40-a yaxın tələbəyə bu ali təhsil ocağının fəaliyyəti haqqında məlumat verilib.

Sonra universitetin prorektoru Fariz İsmayılzadə Azərbaycanın xarici siyasətinin prioritetləri barədə mühazirə oxuyub. Bildirib ki, Azərbaycan regionda reallaşan irimiqyaslı layihələrin əsas təşəbbüskarı və iştirakçısıdır. Azərbaycan olmadan heç bir layihənin həyata keçirilməsi mümkün deyil.

Prorektor Azərbaycanın bir çox beynəlxalq tədbirlərə evsahibliyi etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələrinə hörmətlə yanaşılır. Prezident İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi dünyaya bir mesajdır.

Daha sonra qış məktəbinin iştirakçılarının sualları cavablandırılıb.

**AZƏRTAC**